# AZƏRBAYCANIN 2018-ci ildəki UĞURLARI möhtəşəmdir



**❒ *Ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə söylədiyi "Bütün məsələlərin həllində zamana ehtiyac var" – ifadəsi son illərdə daha tez-tez öz təsdiqini tapır. Bunlardan birini bu il Xəzərin statusunun müəyyən edilməsi barədə sənədin imzalanması zamanı gördük. On illərdən bəri həllini gözləyən həmin problemin çözülməsi məhz 2018-ci ilin adına yazıldı. Ümumiyyətlə, yola salmaqda olduğumuz il böyük uğurlara imza atmağımızla yadda qalır. Həmin uğurlardan bir neçəsini oxuculara təqdim edirik.***

### Azərbaycan həqiqətləri Davos İqtisadi Forumunda

2018-ci il yanvarın 22-də Prezident İlham Əliyev Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfər edib. Səfər çərçivəsində dövlət başçısı İsveçrə Konfederasiyasının Prezidenti Alain Berset, İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Dünya İqtisadi Forumunun prezidenti Börge Brend, eləcə də 17 beynəlxalq təşkilat və şirkət rəhbəri ilə görüşlər keçirib və "Strateji baxış: Avrasiya" mövzusunda interaktiv iclasda, eləcə də, "Neft və qaz sənayesi siyasəti üzrə liderlərin toplantısı" adlı sessiyada iştirak edib.

### Prezident seçkiləri xalqın iradəsini ifadə etdi

Yola saldığımız ilin ən böyük siyasi hadisələrindən biri də aprelin 11-də keçirilmiş prezident seçkiləri idi. Həmin seçkilərdə 86,03 faiz səs toplayan İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Xalqımız, həmişə olduğu kimi, bu dəfə də doğru, müdrik seçim etmişdir. Çünki Azərbaycanın bugünkü inkişafı Prezident İlham Əliyevin fəaliyyəti ilə bilavasitə əlaqədardır. İlham Əliyevin Prezidentliyi dövründə ölkəmiz böyük inkişaf yolu keçib, dövlətimiz güclənib, qüdrəti daha da artıb, iqtisadiyyatımız bir neçə dəfə yüksəlib, Azərbaycanın beynəlxalq müstəvidə mövqeyi xeyli güclənib.

### Seçkilərdən sonra ilk səfərin ünvanı – yenə Ankara

Prezident seçkilərində yenidən xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq dövlət başçısı seçilən İlham Əliyev ilk səfərini aprelin 24-də yenə Türkiyəyə edib. Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla təkbətək görüşüb. Görüş başa çatdıqdan sonra prezidentlərin iştirakı ilə Azərbaycan--Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirilib. İclasdan sonra iki qardaş ölkənin rəhbərləri mətbuata bəyanatlarla çıxış ediblər. Səfər çərçivəsində ölkələrimiz arasında yeni sənədlər də imzalanıb.

### Londonda neft sazişi imzalanıb

Aprelin 26-da Prezident İlham Əliyevin Londonda Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey ilə görüşü olub. Tereza Mey İlham Əliyevi Prezident seçilməsi münasibətilə təbrik edib və iki ölkə arasındakı əlaqələrin bundan sonra daha da genişlənəcəyini vurğulayıb.

Sonra Prezident İlham Əliyevin və Baş nazir Tereza Meyin iştirakı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti – SOCAR, "BP Exploration (Azerbaijan) Limited" şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalanıb.

### TANAP-ın açılışı münasibətilə yenidən Türkiyəyə

Prezident İlham Əliyev iyunun 12-də TANAP layihəsinin açılış mərasimində iştirak etmək üçün qardaş Türkiyə Respublikasına bu il ikinci səfərini edib. Səfər zamanı Prezident İlham Əliyev Əskişəhərdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, həmçinin Ukrayna Prezidenti Pyotr Poroşenko, BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

Həmin gün Əskişəhərdə TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasimdə çıxış edən Azərbaycan Prezidenti bildirib ki, TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür: "TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur".

### Ankaradan Moskvaya

Elə həmin gün Azərbaycan Prezidenti Türkiyədən Rusiya Federasiyasına işgüzar səfər edib. Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşüb.

Rusiya Prezidenti vurğulayıb ki, iki ölkə arasında münasibətlər yeni inkişaf mərhələsindədir və çox uğurla inkişaf edir. Ötən il ərzində əmtəə dövriyyəsinin artımı 34,4 faiz, bu ilin birinci rübü ərzində isə 19 faizə yaxın olub. Yəni bu, çox yaxşı artım tempidir və bu proses dəstəklənməlidir: "Siyasi məsələlərə gəlincə, burada da vəziyyət sabitdir. Parlamentlərin, ictimai təşkilatların xətti ilə daim əlaqə saxlanılır, humanitar əlaqələr inkişaf edir", – deyə Vladimir Putin vurğulayıb.

### Brüsseldə NATO-nun Baş katibi ilə görüş

Dövlət başçımız iyulun 10-da NATO-nun Baş katibi Yens Stoltenberqin dəvəti ilə NATO-nun Zirvə toplantısında iştirak etmək üçün Belçika Krallığının paytaxtı Brüsselə səfər edib. Bu səfər çərçivəsində Azərbaycan Prezidenti mühüm görüşlər keçirib və bu, görüşlər Avropa İttifaqı ilə Azərbaycan arasında yeni sazişin imzalanmasına mühüm töhfə verib. Öncə Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla görüşən dövlət başçısı ikitərəfli əməkdaşlığın daha da gücləndiyini bildirib və qeyd edib ki, Azərbaycan qurumun əksər üzv dövlətləri ilə strateji tərəfdaşlıq sazişi imzalayıb.








### Emmanuel Makronun dəvəti ilə Parisə

İyulun 19-da Fransa Prezidenti Emmanuel Makronun dəvəti ilə Parisə səfər edən Prezident İlham Əliyevin bir sıra önəmli və vacib görüşləri olub. Dünyanın mühüm güc və siyasət mərkəzlərindən biri olan Fransada Prezident Emmanuel Makron, eləcə də bu ölkədə fəaliyyət göstərən böyük şirkətlərin rəhbərləri ilə keçirilən görüşlər əlaqələrin daha da dərinləşməsinə, yeni müstəviyə yüksəlməsinə stimul verib.

### Xəzərin statusu barədə sənəd imzalandı

Prezident İlham Əliyevin avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan prezidentlərinin iştirakı ilə Xəzərin statusunu müəyyənləşdirən sammitdə iştirakı və ölkəmizin burada siyasi iqtisadi uğurlar qazanması dövlətimiz və xalqımız üçün qürurverici hadisədir. Sammitdə ölkəmiz milli maraqlarını qorumaqla Xəzərdə öz mövqeyini möhkəmləndirib.

### Vladimir Putinin Bakıya səfəri

Sentyabrın 27-də Heydər Əliyev Mərkəzində IX Azərbaycan–Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə iştirak ediblər. Xatırladaq ki, bu dövlət başçıları sentyabrın 1-də Rusiyanın Soçi şəhərində də görüşmüşdülər.

Vladimir Putin Bakıda deyib ki, Xəzər dənizinin statusu haqqında Konvensiya da bizim dövlətlərimiz arasında qarşılıqlı faydalı kooperasiya üçün yeni imkanlar açıb. Sözsüz ki, bu, irəliyə atılan adımdır və orada hamının işləməsi, tammiqyaslı implementasiyaya nail olmaq üçün çox iş görmək lazımdır. Amma artıq mövcud sənədlərin imzalanması Xəzər regionunda əməkdaşlıq üçün bizə yaxşı baza yaradır.

### Aşqabadda 21 sənəd imzalandı

Prezident İlham Əliyevin noyabrın 21-də Türkmənistana reallaşdırdığı rəsmi səfərini Azərbaycanla Türkmənistan arasında münasibətlərdə yeni mərhələnin başlanğıcı kimi də xarakterizə etmək olar.

Belə ki, Prezidentimizin Türkmənistanda mehribanlıqla qarşılanması, iki ölkənin dövlət başçıları arasında təkbətək, daha sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşlərin keçirilməsi, prezidentlərin iştirakı ilə Azərbaycan--Türkmənistan sənədlərinin imzalanması və nəhayət, həmin mərasimdən sonra mətbuata birgə bəyanatda səslənən fikirlər bunu deməyə əsas verir.

***Hazırladı:* *İttifaq MİRZƏBƏYLİ,* *"Xalq qəzeti"***